*"Təsdiq edirəm"*

***Azərbaycan Turizm və Menecment Universitetinin***

***rektoru / [signature] / İ.İ.Mədətov***

***"08" "yanvar" 2019-cu il***

**ATMU-nun Elm və innovasiya fəaliyyəti istiqamətləri**

**Elmi tədqiqatlar istiqamətində**

**Elmi tədqiqatların təşkili:**

- elmi tədqiqatların koordinasiyasının həyata keçirilməsi;
- universitetin elmi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatların və araşdırmaların nəticələrinin praktikada tətbiqinə nail olunması;
- təşkilati rəhbərlik, elmi-tədqiqat məsələləri üzrə universitet bölmələrinin fəaliyyətinin əlaqələndirilməsi və bu işlərə müntəzəm nəzarətin həyata keçirilməsi;
- öz səlahiyyətləri daxilində, universitet rəhbərliyinin kadr hazırlığı və elmi tədqiqat fəaliyyətinə aid qərarlarının içrasında yaxından iştirak.

**Əsas funksiyalar:**

- universitetdə aparılan elmi-tədqiqat işlərinin planlaşdırmasını, həyata keçirilməsini təşkil etmək, bu işlərə nəzarət funksiyasını həyata keçirmək;
- universitetin perspektiv və illik elmi-tədqiqat planlarının layihələrinin hazırlanması və təsdiq üçün təqdim edilməsi;
- universitetin ən çox aktuallıq kəsb edən, elmi əhəmiyyət daşıyan problemlər üzrə elmi-tədqiqat işlərinin koordinasiyasının və bu işlərə elmi rəhbərliyin təmin edilməsi;
- elmi-tədqiqatların gözlənilən nəticələrinin proqnozlaşdırılması, hesabatının hazırlanması və ən mühüm işlərin həyata keçirilməsində iştirak;
- struktur bölmələrinin mütəxəssisləri və əməkdaşlığa dəvət edilmiş mütəxəssislər tərəfindən icra edilən elmi-tədqiqat planının icrasına, müqavilə öhdəliklərinə, elmi-tədqiqatların keyfiyyətinə nəzarət funksiyasının həyata keçirilməsi;
- sənədlərin tərtib edilməsi keyfiyyətinə, normativ sənədlər və müqavilə şərtləri ilə uyğunluq qaydalarına nəzarətin həyata keçirilməsi;

- universitetin elmi fəaliyyətinin vəziyyəti, inkişaf perspektivləri və digər analitik məlumatların, araşdırma işlərinin aparılması və yekununa dair hesabatların elmi şuraya təqdim edilməsi üçün hazırlanması;
- tədqiqatların aparılması üçün tələb olunan avadanlıqlar, materiallar və digər resurslara olan ehtiyyacların müəyyənləşdirilməsi, struktur bölmələrinin bu resurslarla təmin edilməsi barədə tədbirlərin hazırlanması, avadanlıq və alətlərin, cihazların saxlanılmasına, onlardan səmərəli istifadə edilməsinə nəzarətin həyata keçirilməsi;
- öz səlahiyyətləri daxilində, universitetin məqsəd və vəzifələrinə uyğun olan digər fəaliyyətlərin həyata keçirilməsi.

**<u>İnnovasiya sahəsində</u>**

Şöbənin əsas məqsədi innovasiya inkişaf proqramlarını elm-təhsil, informasiya-kommunikasiya sahələri, eləcə də intellektual mülkiyyətin kommersiyalaşdırılması, planlanlaşdırılmış dayanıqlı inkişafın təhsil sisteminin islahatları kontekstində universitetin davamlı inkişafını təmin etməkdir.

**Əsas funksiyalar:**

- Ölkə daxilində və xaricdə universitetin innovasiya mərkəzi kimi imicinin formalaşdırılması;
- İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması;
- Universitetin innovativ inkişafı, yenilikçi tipli kiçik müəssisələrin və fəaliyyətlərin şaxələndirilməsi proqramlarını dəstəkləmək və maliyyələşdirmək üçün müraciətlərin və tədbirlərin dəstəklənməsi;
- Universitetin inkişaf tendensiyalarının müzakirə üçün hazırlanması;
- Ali təhsilin inkişafının beynəlxalq istiqamətlərini nəzərə almaqla Azərbaycan Respublikası Təhsil Nazirliyinin təhsilin inkişafı haqqında siyasətinin həyata keçirilməsinə dair fəaliyyətlərin təşkili;
- Universitetdə təhsil, elmi və inzibati fəaliyyət üçün səmərəli idarəetmə sisteminin formalaşdırılması təkliflərini hazırlamaq və onların həyata keçirilməsinə dəstək göstərmək (treninqlər və monitorinqlər təşkil etmək);
- Elektron və məsafədən təhsilin öyrənilməsi sisteminin inkişafı; həyata keçirilməsi və müşayət edilməsi təkliflərinin hazırlanması;
- Müxtəlif kateqoriyalı universitet mütəxəssislərinin fəaliyyət səmərəliliyinin artırılmasına yönəlmiş tədbirlərin hazırlanması;

- İnformasiya-kommunikasiya texnologiyalarından istifadənin səmərəliliyinin yüksəldilməsi və tədrisə daha geniş istiqamətdə tətbiqi tədbirlərin hazırlanması;
- Universitetin web-saytının əlçatanlığının təmin edilməsi və onun cəlbediciliyinin artırılması istiqamətli fəaliyyətlərin təşkili və dəstəklənməsi; təhlükəsizliyinin artırılması istiqamətli fəaliyyətlər;
- Universitetdə aparılan elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması və potensialının gücləndirilməsi tədbirlərinin həyata keçirilməsi;
- Professor-müəllim və tələbələrin (bakalavr, magistratura və doktorantura) elmi tədqiqatlarının kommersiyalaşdırılmasına müəlliflərin cəlb edilməsi üçün tədbirlərin hazırlanması;
- Lazım gəldikdə universitetdə innovativ istiqamətli kiçik müəssisələrin yaradılması və onlara hərtərəfli dəstək göstərilməsinin təşkili;
- Patent və lisenziyalaşdırma fəaliyyətinin təkmilləşdirilməsi;
- İntellektual fəaliyyət nəticələri ilə müvafiq işlərin təşkili;
- Tələbələrin elmi yaradıcılıq fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili, tələbələrin innovativ fəaliyyətə istiqamətləndirilməsi üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi;
- Tələbə layihələrinin gələcəkdə kommersiya məqsədləri üçün hazırlanmasına dəstək tədbirlərinin genişləndirilməsi məqsədli seçiminin təşkili; perspektivli layihələrin müsabiqəsinin təşkili; qrant təşkilatlarına və dövlət qurumlarına dəstək üçün müraciətlərin təşkili;
- Kadr hazırlığı istiqamətində ali məktəb üçün qeyri-ənənəvi yenilikçi inkişaf istiqamətinin müəyyənləşdirilməsi tədbirlərinin genişləndirilməsi, yenidən hazırlama və ixtisas artırma fəaliyyətinin qeyri-ənənəvi perspektivli üsullarla inkişafına nail olunması;
- İnnovativ layihələrin hazırlanması vərdişlərinin təkmilləşdirilməsi və bu işə marağı olan gənclərin hazırlanması istiqamətli fəaliyyətlərin həyata keçirilməsi;
- Tətbiqi istiqamətli tədqiqatların şaxələndirilməsi istiqamətli fəaliyyətlərə diqqətin artırılması;
- İnnovativ layihələrlə işləmək məqsədilə çoxistiqamətli (multidisiplinar) elmi qrupların yaradılması;

- Universitet layihələrinin kommersiyalaşdırılması məqsədilə innovativ inkişaf institutları, müəssisələri və bütün mülkiyyət formalı təşkilatlarla ölkə daxilində və xarici ölkələrlə faydalı əməkdaşlığın həyata keçirilməsi;
- İnnovativ təhsil prosesinin həyata keçirilməsi məqsədilə kadrların inkişaf etdirilməsi və dəstəklənməsi;
- İnkişaf layihələrinə uyğun olan aktiv gənclərin seçilməsi və inkişaf etdirilməsi istiqamətində universitetdə yeni iş mədəniyyətinin formalaşdırılması;
- Sosial şəbəkə və İnternetin digər alətləri vasitəsilə abituriyentlərin peşə seçiminə dəstək göstərilməsi;
- Elmi konfransların, seminarların, dairəvi masaların və bu istiqamətli digər tədbirlərin təşkili və həyata keçirilməsi;
- Universitetin elmi səviyyəsi göstəricilərinin yüksəldilməsi üçün tədbirlərin həyata keçirilməsi;
- Tələbələrdə sahibkarlıq qabiliyyətlərinin formalaşdırılması tədbirlərinin həyata keçirilməsi;
- Kitabxana fəaliyyəti proseslərinin avtomatlaşdırılması;
- "Antiplagiat" sistemi işinin təşkili və genişləndirilməsi.